**SABUNÇU RAYON İCRA HAKİMİYYƏTİ**
**APELLYASİYA ŞURASININ**

**QƏRARI № 01**

Bakı şəhəri, 27 iyun 2018-ci il

Sabunçu rayon İcra Hakimiyyəti Başçısının I müavini ApellyasiyaŞurasının sədri Güloğlan Məmmədovun sədrliyi ilə

"Cahangir" Mənzil-Tikinti Kooperativi Bakı şəhəri Sabunçu rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin hərəkətlərinin qanunsuz və əsassız sayılması barədə daxil olmuş müraciətə baxaraq

**Müəyyən edildi:**

Bakı şəhəri Sabunçu rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin "Cahangir" Mənzil Tikinti Kooperativinin Abşeron rayonu, Məmmədli kəndi ərazisində 1.6 ha torpaq sahəsində hündürmərtəbəli çoxmənzilli yaşayış binasının inşasının dayandırılmasına dair hərəkətlərinin qanunsuz və əsassız sayılmasına dair 02 iyun 2018-ci il tarixli şikayət xarakterli müraciət daxil olmuşdur.

"Cahangir" MTK-nın rəhbərliyi bildirmişdir ki, tikinti işlərinin dayandırılması, qanunsuz müdaxilələr mənzil tikinti kooperativinin koopertiv üzvləri qarşısında götürdüyü öhdəlikləri vaxtında və layiqincə yerinə yetirilməsini əngəlləməklə, tikintinin özbaşına olaraq dayandırılması müəssisəmizin əlavə maliyyə itkilərinə məruz qalmasına səbəb olmaqla sahibkarlıq subyekti kimi fəaliyyətlərinin iflic vəziyyətinə düşməsi ilə nəticələnmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, Daşınmaz Əmlakın Dövlət Reyestrindən verilmiş 0002596 saylı 05.07.2006-cı il tarixli, 0007075saylı 23 yanvar 2007-ci il tarixli çıxarışlara əsasən "Cahangir MTK"-nın mülkiyyətində olan 1,6 ha torpaq sahəsi sahibkarlıq məqsədilə verilmiş kənd təsərrüfatı təyinatlı torpaq sahəsidir. Həmin torpaq sahəsi Sabunçu rayonunun inzibati ərazisinə aiddir. Lakin qeyd edilənlər nəzərə alınmadan Abşeron rayon İcra Hakimiyəti Başçısının 02.02.2007-ci il tarixli 032 saylı sərəncamı ilə "Cahangir MTK"-ya həmin torpaq sahəsində çoxmənzilli yaşayış binasının tikinisinə razılıq verilmişdir.

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Ərazi Vahidlərinin Dövlət Reyestri tərəfindən təsdiq edilmiş Sabunçu rayonunun İnzibati Ərazisinin xəritəsinə əsasən tikinti işlərinin aparıldığı ərazi Sabunçu rayon İcra Hakimiyyətinin inzibati ərazisidir.

Yeri İcra Hakimiyyətləri haqqında Əsasnamənin 4.16.3-cü maddəsində qeyd edilir ki, müvafiq ərazidə dövlət mülkiyyətində olan torpaqlardan istifadə edilməsini planlaşdırmaq, habelə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan təyinatı üzrə istifadə edilməsinə nəzarəti həyata keçirmək və müvafiq tədbirlər görmək Yerli İcra Hakimiyyəti Başçısının səlahiyyətinə aiddir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 240-cı maddəsinə əsasən torpaq sahəsinin mülkiyyətçisi şəhərsalma və tikinti normalarını və qaydalarını, habelə torpaq sahəsinin təyinatı ilə bağlı tələbləri gözləmək şərti ilə sahədə binalar və

qurğular ucalda bilər, onları yenidən qura və ya uçura bilər, öz sahəsində başqa şəxslərin tikinti aparmasına icazə verə bilər.

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 13-cü maddəsinin 3-cü bəndində qeyd edilir ki, kənd təsərrüfatı təyinatlı torpaqlardan başqa məqsədlər üçün istifadəyə yalnız həmin torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi ilə yol verilə bilər. Həmin Məcəllənin 48-ci maddəsinin 4-cü bəndinə əsasən torpaq mülkiyyətçisinə, istifadəçisinə və icarəçisinə torpaq sahəsi həmin sahə üçün müəyyən edilmiş məqsədli təyinatına və hüquqi statusuna uyğun olaraq verilir.

Keçirilmiş müzakirə və araşdırmadan məlum olmuşdur ki, "Cahangir" Mənzil Tikinti Kooperativinin mənzil tikintisi ilə bağlı fəaliyyəti torpaq sahəsinin təyinatına müvafiq olaraq aparılmır və Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-cü, 48-ci maddələrinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 240-cı maddəsinin tələblərinə ziddir.

Göstərilənləri nəzərə alaraq və "Yerli İcra Hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"sinin 7-ci maddəsini rəhbər tutataraq

**Qərara alındı:**

1. "Cahangir" Mənzil-Tikinti Kooperativinin Sabunçu rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin "Cahangir" Mənzil Tikinti Kooperativinin mülkiyyətində 1.6 ha torpaq sahəsində aparılan tikinti işlərinin dayandırılmasına dair hərəkətlərin qanunsuz və əsassız sayılmasına dair şikayəti təmin edilməsin.
2. Apellyasiya Şurasının qəbul etdiyi qərardan qanunvericilikdə nəzərdə tutulmuş qaydada şikayət verilə bilər.
3. Qərarın surətinin aidiyyəti şəxslərə göndərilməsi Apellyasiya Şurasının katibliyi tərəfindən təmin edilsin.

**Sabunçu rayon İcra Hakimiyyəti**
**Apellyasiya Şurasının sədri** **G.Məmmədov**